


# Qlobal hədəflərə doğru beynəlxalq həmrəylik

## *Azərbaycanın sədrliyi ilə keçirilən ən böyük iqlim konfransı uğurla davam etdirilir*

*Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) uğurla keçirilir. Artıq konfrans çərçivəsində bir sıra mühüm tədbirlər təqdim olunub. Azərbaycan ətraf mühitin mühafizəsinə və iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması məsələlərinə xüsusi önəm verir və bu istiqamətdə mühüm işlər görür. Dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) üzrə yekdil qərarla ölkəmizin ev sahibi seçilməsi bunun bariz nümunəsidir.*

Tədbirə hazırlaşmaq üçün ölkəmizin bir ildən də az vaxtı var idi. Ancaq indiyədək mühüm beynəlxalq tədbirlərin təşkilində yaxşı təcrübə qazanmış Azərbaycan qısa müddət ərzində yüksək hazırlıq həyata keçirib. Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurasında, Petersberq İqlim Dialoqunda, VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda, "Şanxay Əməkdaşlıq Təşkilatı plyus" formatı tədbirində, Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə, 2-ci Şuşa Qlobal Media Forumunda çıxışlarında, eləcə də televiziya kanallarına müsahibələrində səsləndirdiyi fikirlərlə COP29 Sədrliyinin arxitekturasını müəyyən etmişdir. "Yaşıl dünya naminə həmrəy olaq!" şüarı ilə Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə iqlim dəyişmələrinə qarşı mübarizə kimi mühüm qlobal məsələdə nümunəvi liderlik nümayiş etdirən ölkəmiz bütün dövlətləri yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirməyə çağırıb. COP29 Azərbaycanın dövrün çağırışlarını yüksək səviyyədə cavablandırmaq imkanlarının təqdimatında əhəmiyyətli rol oynayacaq. COP29 Sədrliyi tərəfindən 14 əsas təşəbbüs irəli sürülüb. Həmin təşəbbüslərin müəyyən olunması zamanı da dünya ictimaiyyətinin Azərbaycandan gözləntiləri nəzərə alınıb və aktual problemlərə diqqət yetirilib. Builki COP-un əsas mövzusu iqlim maliyyələşməsinin təmin olunmasıdır.

Noyabrın 12-də Bakıda COP29-un Liderlər, 13-də isə COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammiti keçirildi. COP29-un Liderlər Sammitinin əsas mövzusu iqlim təhlükələri, dünyada artan temperaturun 1,5 dərəcə aşağı salınması, quraqlığa qarşı mübarizə, karbon emissiyasının azaldılması və yoxsul ölkələrə kömək məqsədilə maliyyə fondunun yaradılması olub. COP29-un sammitində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəf dövlətlərindən 80 prezident, vitse-prezidenti, hökumət başçıları iştirak edib. İki gün ərzində COP29 dünya liderləri üçün ambisiyaları artırmaq və iqlim vədlərini konkret real iqtisadiyyat nəticələrinə çevirmək üçün bir platforma təqdim edib.

**(davamı 2-ci səhifədə)**




# COP29: Qlobal hədəflərə doğru beynəlxalq həmrəylik

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş və başqaları Liderlər Zirvə görüşündə çıxış edib. BMT-nin baş katibi Antonio Quterreş bildirib ki, konfrans iştirakçılarının qarşısında əsas qlobal çağırış - ədalətli enerji keçidinin həlli yollarını tapmaqdır. Onun sözlərinə görə, bərpaolunan enerji sahəsi sürətlə inkişaf edir və keçən il ilk dəfə bərpaolunan enerji mənbələrinə qoyulan investisiyaların həcmi qalıq yanacağa çəkilən xərcləri üstələyib. Bu, həmin resurslarla zəngin olan inkişaf etməkdə olan ölkələr üçün rifah, yoxsulluğun aradan qaldırılması və davamlı inkişafın təşviqi baxımından böyük fürsətdir. COP29-un Liderlər Sammitindəki çıxışlarda bir daha bu çağırış səsləndirildi ki, indiki və gələcək nəsillərə daha sağlam bir planet miras qoymalıyıq. İtki və Zərər Fondunu, COP29 maliyyə fondunu təmin edən bir sammit olaraq da əmin olmalıyıq ki, lazımi vəsait ən çox ehtiyac duyan insanlara çatacaq. BMT-nin Baş katibi Antonio Quterreş belə bir əminliyi ifadə etdi ki, Prezident İlham Əliyevin səyi nəticəsində uğurlu bir COP-a imza atacağıq.

Tədbir qlobal səviyyədə nümunə olmaqla yanaşı, iqlim dəyişmələri ilə mübarizədə beynəlxalq birliyin gücünü nümayiş etdirəcək. Çünki COP29-da qəbul edilən qərarlar gələcək illərin iqlim strategiyalarını, ümumilikdə isə, bu sahədə yeni bir mərhələ formalaşdıracaq. Nəticədə məhz Azərbaycanda "yaşıl enerji" layihələri, texnoloji yeniliklər və ətraf mühitin qorunmasına dair yeni proqramlar qəbul edilərək qlobal səylərə töhfə veriləcək. Bu isə ölkəmizin qlobal iqlim siyasətindəki rolunu artırmaqla onu iqlim dəyişmələrinə qarşı mübarizədə aktiv "oyunçu"ya çevirəcək, beynəlxalq arenada nüfuz və mövqelərini, o cümlədən regionda liderliyini daha da gücləndirəcək.

COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində Prezident İlham Əliyev beynəlxalq gündəlikdə duran mühüm məsələlərdən birinə - neokolonializm və iqlim dəyişmələrinə diqqəti yönəltdi. Fransa və Niderlandın, xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz ərazilərinin iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasında olduğunu, artan dəniz səviyyəsinin, kəskin hava şəraitinin və biomüxtəlifliyin pozulmasının bu regionlara ciddi təhlükə yaratdığını, həmin icmaların səsinin bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyevin hər bir çıxışı mühüm çağırışlarla zəngindir. Qlobal problemlərin həllində beynəlxalq həmrəyliyin daha da gücləndirilməsi, səylərin birləşdirilməsi əsas məsələ kimi qarşıya qoyulur.

"Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Biz, həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik". Bu fikirləri kiçik ada dövlətlərinin Sammitində Azərbaycan Prezidenti İlham Əliyev söyləyib. Dövlət başçısı bildirib ki, həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Bu ilin mayında COP-la bağlı planlarını müzakirə etmək üçün Baham adalarının, Tonqanın və Tuvalunun rəhbərləri Azərbaycana səfər etdilər. COP29-da mənalı nəticələrin əldə olunmasına çağırış edilən və əlçatan iqlim maliyyəsinin vacibliyi qeyd olunan Bakı Kommünikesi qəbul edilib. Bu ilin sentyabrında İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması ilə bağlı Bakıda ciddi irəliləyiş əldə olunmuşdur.




Hazırda proses ehtiyac duyan ölkələrə, xüsusən də kiçik ada dövlətlərinə maliyyənin verilməsi üçün tamamlanmalıdır. Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırırıq. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmos Agentliyi - Azerkosmosdan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə Anlaşma Memorandumu imzalanmışdır.

## *Azərbaycanın sədrliyi ilə keçirilən ən böyük iqlim konfransı uğurla davam etdirilir*

Dünya okeanlarında suyun səviyyəsinin artacağı proqnozlaşdırılsa da, bir çox endoreik su hövzələrində əhəmiyyətli azalmalar müşahidə olunur. Dünya İqtisadi Forumunun məlumatına görə, 1990-cı ildən bəri dünyanın böyük göllərinin 53 faizi kiçilib. Xüsusilə Xəzər və Aral dənizi, Çad, Titikaka və Viktoriya göllərinin ölçülərində kəskin şəkildə azalma var. Dünyanın ən böyük daxili su hövzəsi olan Xəzər dənizində yaranan vəziyyət onun sularını bölüşən Azərbaycan, Qazaxıstan, İran, Rusiya və Türkmənistana ciddi təsir göstərir. Karbon emissiyalarını azaltmaq üçün ənənəvi enerjidən alternativ enerjiyə keçidin önəmli olduğunu bildirən ekspert və mütəxəssislər vurğulayırlar ki, hər bir ölkə öz ərazisində günəş, külək və digər alternativ enerjilərin istehsalına başlamalıdır və onların stansiyaları qurulmalıdır. Yaxud ənənəvi avtomobillərdən elektrik avtomobillərinə keçid etmək lazımdır. Həmçinin binaların istilik izolyasiyası gücləndirilməli, orada artıq enerji itkilərinin qarşısı alınmalı, istehsalatda, xüsusilə kənd təsərrüfatı məhsullarının və sənaye istehsalında yeni texnologiyalar tətbiq edilməlidir ki, atmosferə atılan karbon emissiyalarının artımına səbəb olmasın. Metan qazının əsas mənbəyi sayılan kənd təsərrüfatında onun azaldılmasına nail olmaq çox çətindir. Ona görə də həmin tədbirlərin görülməsi üçün COP29 tədbiri maliyyə mənbələrinin axtarışı ilə yadda qalacaq.

COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr arasında konsensusun tapılmasına töhfə verməyə və Qlobal Cənubla Qlobal Şimal arasında əlaqələr qurulmasına çalışır. Qlobal istiləşmə və güclü sənaye inkişafı fonunda iqlim dəyişmələrindən bütün ölkələr təsirlənir. Ancaq bu, kiçik ada dövlətləri üçün bir mövcudluq məsələsidir. Buna görə də Azərbaycan o mövqedən çıxış edir ki, artıq müzakirələrdən işə keçilməli, kiçik ada dövlətlərinə real kömək göstərilməli, xüsusilə də maliyyələşmə məsələləri həllini tapmalıdır. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə sanballı töhfələr verməklə yanaşı, bərpaolunan mənbələrdən elektrik enerjisi istehsalının artırılmasını da özünün prioritet hədəflərindən biri kimi müəyyənləşdirib. Abşeron yarımadası, işğaldan azad olunmuş ərazilər, Naxçıvan bərpaolunan enerji mənbələri ilə zəngindir. Bu potensialdan səmərəli istifadə etməklə qeyd olunan mənbələrdən getdikcə daha çox həcmdə ekoloji cəhətdən təmiz enerji alınacaq. Azərbaycanın enerji keçidinin regional xarakterli növbəti mərhələsi Xəzər dənizinin nəhəng enerji potensialının işlənməsinə və "yeni enerji" dəhlizlərinin qurulmasına əsaslanır. Bu, həm də ölkəmizin "yaşıl enerji" tədarükçüsünə transformasiyası deməkdir və yeni ixrac potensialı yaranacaqdır. "Yaşıl enerji"nin Avropaya ixracı məqsədilə Qara dənizin dibi ilə kabel xəttinin çəkilməsinə dair razılaşma əldə olunub. Liderlər Sammitində bildirildiyi kimi, Azərbaycan həmçinin ixrac bazarlarına diqqət yetirir və öz tərəfdaşları ilə birgə çalışır ki, digər mühüm enerji təhlükəsizliyi layihələrini həyata keçirsin. Bunun sayəsində yaşıl enerji Avropaya nəql ediləcək.




Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə ciddi rol oynayan ölkə olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"a və "yaşıl enerji"yə keçiddə də gələcək dayanıqlı inkişafı baxımından qarşıya qoyulan hədəflərə nail olunacaq. COP29-un məqsədi tədbirin bütün aspektləri çərçivəsində dayanıqlılıq və həmrəyliyi tərənnüm etməklə ekoloji təsirləri minimuma endirməkdir.

**Mustafa KAMAL,**
**"Respublika".**